**Bu gün Azərbaycanı dünyada tanıdan, onun nüfuzunu daha da yüksəldən mühüm amillərdən biri də ölkə rəhbərliyinin böyük diqqət və qayğısı ilə əhatə olunan mədəni-mənəvi sərvətimizdir. Məlumdur ki, Azərbaycanın tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi bu ərazidə müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Ayrı-ayrı dövrlərdə bütpərəstlik, zərdüştlük, iudaizm, xristianlıq, islam və bir çox başqa dini cərəyanlar ölkədə bu və ya digər dərəcədə yayıla bilmiş, bir-birinə qarşılıqlı təsir göstərmişdir.**

# Mədəni və dini memarlıq nümunələri dövlət tərəfindən qorunur, bərpa edilir



Azərbaycanın qədim, zəngin mənəvi dəyərləri, mədəni irsi hazırda xalqın fəxr mənbəyi və dünya mədəniyyətinə töhfəsi qismində çıxış edir. Bu sahəyə dövlət qayğısı və beynəlxalq təcrübənin tətbiqi istiqamətində görülən işlər günügündən artmaqdadır. UNESCO ilə sıx əlaqələrimiz milli-mənəvi dəyərlərimizi dünyada tanıtmaq sahəsində əhəmiyyətli rol oynayır. Artıq mədəni irsimizin bəzi qiymətli nümunələri bu təşkilatın Qorunan Mədəni İrs siyahısında yer alıb.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra dövlət-din münasibətlərində yeni mərhələ başladı. Din sahəsinə xüsusi qayğı göstərildi, yeni ibadət ocaqları inşa olundu. Ümummilli lider davamlı olaraq dini ibadət ocaqlarını ziyarət edir, din xadimləri və dini icma rəhbərləri ilə görüşürdü. Ölkə vətəndaşlarının dini etiqad və vicdan azadlığı təmin olundu, bu sahə ilə bağlı qanunvericilik aktları beynəlxalq hüquq normalarına uyğunlaşdırıldı. Uzun illər ibadət ocaqlarının, dini təyinatlı ədəbiyyatın nəşrinə və yayılmasına qoyulmuş qadağalar aradan qaldırıldı, yeni ibadət evlərinin və dini təhsil müəssisələrinin əsası qoyuldu. İllər boyu baxımsızlıqdan uçub-dağılmış dini ibadət ocaqları təmir və bərpa olundu, gənc nəslin sağlam ruhda, milli-mənəvi dəyərlərə sadiq yetişməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirildi.

Bu gün Azərbaycanda dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir. Ölkə başçısının göstərişi ilə məscidlər tarixi simaları qorunmaqla əsaslı təmir edilib. Dünyanın ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidi yenidən qurulub. Xristian dini abidələri, alban kilsələri, o cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi təmir edilib.

Bu günlərdə də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi-Zəhra" məscidinin yeni binasında yaradılan şəraitlə tanış olublar.

Qeyd edək ki, məscidin qəzalı vəziyyətdə olan əvvəlki ikimərtəbəli binasında dindarların ibadəti üçün əlverişli şərait yox idi. Məsciddə eyni vaxtda maksimum 500-550 nəfər ibadət edə bilirdi. İbadət edənlərin sayı çox olduğundan, məscidə üz tutanlar məcbur qalıb açıq havada ibadət edirdilər. Odur ki, qəsəbədə daha müasir və geniş məscid kompleksinin tikintisinə ehtiyac yaranmışdı.

Prezident İlham Əliyevin tapşırığına əsasən, məscid kompleksi üçün layihə hazırlanıb və yeni bina inşa olunub.

İndi isə məsciddə, eyni zamanda, 1800 nəfərin ibadət etməsi mümkün olacaq. Yeni məscid kompleksində kişilərin və qadınların ibadəti üçün bütün zəruri şərait yaradılıb. Kompleksin inşası zamanı Abşeron məscidlərinin memarlıq üslubuna uyğun elementlərdən istifadə olunub. Buraya ağac materiallarından hazırlanmış şəbəkələr də daxildir. Məscid kompleksini diametri 4 metr və hündürlüyü 42 metr olan iki minarə və hündürlüyü 25 metr olan günbəz bəzəyir.

Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi-Zəhra" məscidinin müasir kompleksinin istifadəyə verilməsi bir daha sübut edir ki, İslam mədəniyyəti ilə bağlı tarixi memarlıq abidələrinin, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ölkəmizdə dövlət siyasətinin mühüm tərkib hissəsidir.

Tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, həmçinin dini ziyarətgahların, maddi mədəniyyət abidələrinin bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan dövlətimiz bu siyasəti işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdirir.

Maddi mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı nəticəsində orada İslam mədəniyyətinə aid olan bütün muzeylər, məscidlər, abidələr dağıdılıb. Eləcə də təkcə İslam mədəniyyətinə aid deyil, digər abidələr də məhv edilib. Təəssüflə deməliyik ki, işğaldan azad olunmuş ərazilərdə məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda, bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli-mənəvi dəyərləri təhqir edilmişdir.

Ermənistan tərəfinin mədəniyyət obyektlərinə qarşı vandalizm aktları bir çox beynəlxalq sənədlərin, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında" Konvensiya"nın müddəalarını kobud şəkildə pozmuşdur.

Bu gün böyük fəxarət hissi ilə deyə bilərik ki, 30 ilə yaxın erməni əsirliyində qalmış Qarabağdakı dini abidələrimiz üçün Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi və müzəffər ordumuzun şücaəti ilə 44 günlük Vətən müharibəsində qazandığımız şanlı qələbədən sonra durğunluq dövrü bitib, intibah mərhələsi başlayıb.

Bəli, Vətən müharibəsində erməni talanına son qoyuldu. İyirmi yeddi ildən sonra Ağdam Cümə məscidində yenidən azan sədası eşidildi. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva həmin məscidi ziyarət etmiş, dövlət başçısı Məkkədən gətirdiyi müqəddəs "Qurani-Kərim"i məscidə hədiyyə etmişdi. Məscidin qarşısında çıxışı zamanı Prezident İlham Əliyev demişdir: "Bu gün mən Ağdam məscidinə Məkkədən gətirdiyim "Qurani-Kərim" bağışladım. Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğaldan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq. Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq". Beləliklə, Ağdam məscidinin də əsaslı təmiri və bərpası işlərinə start verildi və indi məscid istifadəyə yararlıdır.

Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizin qorunması, onun dünyaya çatdırılması istiqamətində gördüyü məqsədyönlü işlərin nəticəsində yaxın vaxtlarda Qarabağın bütün tarixi, mədəni və dini abidələri bərpa edilib öz əvvəlki görkəminə qaytarılacaq.

**Nurəngiz ADİLQIZI,**
**"Respublika".**